# Daşınmaz mədəni sərvətlərin müəyyən edilməsi üzrə Ekspert Şurasının növbəti iclası

***İyulun 8-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında Mədəniyyət Nazirliyi yanında daşınmaz mədəni sərvətlərin müəyyən edilməsi üzrə Ekspert Şurasının görülmüş işlərə və qarşıda duran vəzifələrə dair iclası keçirilib.***



Ekspert Şurasının sədri, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova çıxış edərək Şura tərəfindən həyata keçirilən işlər barədə məlumat verib. Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva abidələrin qiymətləndirilməsi ilə bağlı mövcud çətinliklər və qarşıda duran məsələlər haqqında danışıb.

Xidmətin Mədəni irsin qorunması şöbəsinin Abidələrin qorunmasına nəzarət sektorunun müdiri Pərviz Nəcəfov bildirib ki, I mərhələdə Bakı şəhəri üzrə 6 və işğaldan azad edilmiş ərazilər üzrə 51 obyekt, II mərhələdə Binəqədi rayonu üzrə 13 dövlət qeydiyyatında olan abidə və 12 tarix-memarlıq əhəmiyyətli tikili, III mərhələdə isə Memarlar İttifaqının Səbail rayonu üzrə təklif etdiyi 63 tikili - ümumilikdə cəmi 145 abidə baxılması üçün Ekspert Şurasına təqdim olunub.






Qeyd edilib ki, I mərhələdə Bakı şəhəri və işğaldan azad edilmiş ərazilər üzrə obyektlərlə bağlı şura üzvləri tərəfindən verilən təkliflər ümumiləşdirilərək Azərbaycan Milli Elmlər Akademiyasına (AMEA) göndərilib. AMEA tərəfindən 48 obyektin siyahıya daxil edilməsinə müsbət rəy verilib.

II mərhələdə Binəqədi rayonu üzrə 8 obyektin abidələr siyahısına daxil edilməsi məqsədəuyğun hesab olunub.

III mərhələdə isə Səbail rayonu üzrə 63 binaya dair hazırlanmış materiallara şura üzvləri tərəfindən baxış keçirilib, 49-nun abidələr siyahısına daxil edilməsinə müsbət rəy verilib.

Sonda şura üzvlərinin həyata keçirilən işlərlə bağlı irad və təklifləri dinlənilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2024.- 9 iyul, (№ 141).- S.7.